# Pedaqoji prosesdə humanist yanaşmanın başlıca xüsusiyyətləri

**Gülnar Cümşüd qızı Poladova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** gulnarpoladova987@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.e.d., prof. İ.H. Cəbrayılov

**Açar sözlər:** pedaqogika, müəllim, məktəbli, təhsil, şəxsiyyət, mənəviyyat, sinif
**Ключевые слова:** педагогика, учитель, школьник, образование, личность, духовность, класс
**Key words:** pedagogy, teacher, schoolboy, education, personality, spirituality, class

Məlumdur ki, təlim-tərbiyə prosesində şagirdlərin zehni inkişafı ilə onların emosional inkişafı paralellik təşkil edir. Bu baxımdan, pedaqoji prosesdə şagirdin təhsilləndirilməsi ilə yanaşı, onlarla tərbiyəvi işin aparılması da xüsusi əhəmiyyət daşıyır. Müxtəlif dövrlərdə qabaqcıl elm xadimləri tərbiyənin əhəmiyyətindən bəhs edərkən, onun insanı təkmilləşdirmək üçün vacib amil olduğunu qeyd edirdilər. Təhsilin məqsədi hərtərəfli inkişaf edən, ahəngdar şəxsiyyətin formalışdırılmasıdır ki, humanizm tərbiyəsi bu məqsədə nail olmaqda müəllimə geniş imkanlar verməkdədir. Elmi-nəzəri pedaqogikanın banisi Y.A. Komenski təlimdə insanlıq tərbiyəsinə yer vermişdir. O, məktəbi "humanizm beşiyi", "insanlıq tərbiyəçisi" kimi dəyərləndirmişdir (1, s. 7).

Təlim-tərbiyə prosesi elə istiqamətdə qurulmalıdır ki, xüsusən kiçikyaşlı məktəblilərdə yeni dünyagörüşü formalaşdırsın, onlarda humanist hisslərin-düzgünlük, ədalət, demokratiya, doğruluq, əməksevərlilik, vətənpərvərlik, milli və ümumbəşəri dəyərlərə hörmət və.b. mənəvi keyfiyyətlər formalaşdırmağa şərait yaratsın. Bunun üçün müəllim təlim-tərbiyə prosesində uşaqlarla xoşmənalı ünsiyyət və münasibət qurmalıdır. Pedaqoji situasiyada humanizm tərbiyəsinin əsas elementlərini aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

— Nəcib hisslərin təbliği;
— Vətənpərvərlik, milli-mənəvi dəyərlərə hörmət;
— Əməyə sevgi tərbiyəsi;
— Düzgünlüyün və doğruluğun tərənnümü;
— Milli və ümumbəşəri hisslərin tərbiyəsi.

Məktəblilərdə artıq ibtidai sinifdən humanizm tərbiyəsi formalaşdırılır, tərbiyə işinin düzgün qurulması, şəxsiyyətə yönəlik olması, hər bir təhsilalana fərd kimi yanaşmağı, onlara hörmət və inamı, ləyaqətli münasibəti və maraq və ehtiyaclarının nəzərə alınması təmin edilir. Humanizm tərbiyəsinin humanist münasibətlər, humanist hisslər və humanist keyfiyyətlər kimi elementləri vardır. Onu da qeyd edək ki, tərbiyə işinin qurulmasında və ahəngdar şəxsiyyətin formalaşdırılmasında sistemli yanaşma prinsipi nəzərə alınır. Belə ki, qeyd etdiyimiz bu komponentlər uşaqların davranışlarında müxtəlif formada təzahür edir.

Təlim-tərbiyə prosesində heç də bütün şagirdlər eyni və yaxın tərbiyəlilik səviyyəsinə malik olmur. İbtidai sinif şagirdlərinin tərbiyəlilik səviyyəsinin ölçülməsi özlüyündə mürəkkəb və uzunmüddətli bir işdir. Pedaqoji prosesdə müəllimlə şagirdin bir-birilə zidləşməsi, əks mövqedə olması humanizm tərbiyəsi üçün xarakterik deyildir. Tərbiyə işinin gedişində müəllimin kompleks, ciddi, hərtərəfli və planlaşdırılmış fəaliyyət göstərməsi zəruridir. Humanizm

tərbiyəsinin mərkəzində şagirdə sevgi, ona hörmət və inam durur. Pedaqoji situasiyada müəllim şagirdlərin maraq və tələbatlarını nəzərə alır, uzun və yorucu dərs prosesini şagirdlər üçün maraqlı, zövq ala biləcəkləri bir proseslə əvəz edərək, onlarda müəllimə, fənnə, məktəbə, oxumağa qarşı istək yaradır.

Humanizm tərbiyəsi tərbiyə işinin təşkili və gedişində müəllimdən yüksək səy, pedaqoji ustalıq və pedaqoji takt tələb edir. Müəllim şagirdlərə məhəbbətlə və tələbkarlıqla yanaşmalıdır. O, pedaqoji situasiyada hər bir uşağın şərəf və ləyaqətinə hörmət edir, onların mənəviyyatının alçaldılmamasına çalışır, öz sadəliyi, səmimiliyi, xeyirxahlığı və tələbkarlığı ilə seçilir (1, s. 9). Təlim-tərbiyə prosesində müəllim ibtidai sinif şagirdlərində mədəni davranışları stimullaşdırmalı və öz davranışı ilə şəxsi nümunə olmalıdır. Humanizm tərbiyəsində uşaqlarda örnək davranışın əxlaqi normalarla, milli-mənəvi dəyərlərlə uyuşan nümunələr fonunda verilməsi vacibdir. Bunun üçün müxtəlif əlavə vəsaitlərdən, dərslik nümunələrindən, xalq ədəbiyyatı nümunələrindən istifadə etmək mümkündür. Elə nümunələr seçilməlidir ki, bunlar kiçikyaşlı şagirdlərin təxəyyülünü inkişaf etdirsin, onlarda gözəllik, xeyirxahlıq, düzgünlük, ədalət kimi müsbət keyfiyyətlər aşılaya bilsin. Bu işdə əsas amil müəllimin tərbiyə işini düzgün təşkil etməsi, ardıcıllıq, mütəşəkkillik və planlılığı gözləməsidir. Bu baxımdan, inandırma, nümunə göstərmək, alışdırma, təmkinlə yanaşmaq, şagirdi etdiyi yaxşı davranışın ardından mükafatlandırmaqdan çəkinməmək lazımdır.

Humanizm tərbiyəsinin erkən yaşlardan-ibtidai sinif şagirdlərindən başlanmasının əhəmiyyətini belə təsvir edə bilərik: Kiçikyaşlı uşaqları pislikdən, qəddarlıqdan çəkindirir, xəstələrə, qocalara, köməyə ehtiyacı olanlara yardım etmək, bütün bəşəriyyətə qarşı sevgi, qayğı, mehribanlıq onlarda öz sosial məsuliyyətini dərk etməyə imkan verməklə cəmiyyət və dövlət üçün yararlı şəxsiyyətlər yetişdirməyə şərait yaradır. İbtidai sinif şagirdləri 6 yaşdan məktəbə qədəm qoyur, bu dövrdə müəllimin düzgün olmayan yanaşması şagirdləri mütiliyə yönəldə, onlarda müəllimə və məktəbə qarşı neqativ tutumun meydana gəlməsinə səbəb ola bilər. Şagird onunla mehriban münasibət qurulduğunu, etdiyi səhvləri aqressiv qarşılanmadan yenidən etmə şansının verildiyini gördükdə özünü bir şəxsiyyət kimi təsdiq etməyə və özünü reallaşdırmağa çalışır.

Pedaqoji prosesdə şagirdin öyrənmə zamanı öz emosiyalarını qatmasına, biliyi özlərinin kəşfi zamanı yaşadığı sevinci dadmağa, əzbərçilik mühitindən uzaqlaşdırmağa, passiv resipient olmaqdan çıxmağa imkan verir. Uşaqlarda mədəniyyət və dəyərlər ümumbəşəri dəyərlər fonunda inkişaf etdirilir, bunun üçün sinif fəaliyyətlərinin rəngarəng və məhsuldar olmasına diqqət edilməsi vacibdir. Humanizm tərbiyəsində müəllim öz bilik və bacarıqları ilə daxili-mənəvi aləmini bir bütün halına gətirməyi bacarırsa, deməli o şagirdin də qəlbinə yol tapa biləcəkdir.

**Məqalənin aktuallığı.** Məqalənin aktuallığı kiçikyaşlı məktəblilərdə humanizm tərbiyəsinin formalaşdırılmasında tərbiyə işinin əsas tələblərini müəyyən etməklə yeni elmi istiqamətlərin tətbiqindədir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə kiçik yaşlı məktəblilərin tərbiyəsinin inkişafını və mənəviyyatının formalaşmasını təmin edən psixo-pedaqoji amillər sistemi açıqlanmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatdan əldə olunmuş nəticələr ibtidai sinif müəllimlərinin fəaliyyəti zamanı tətbiq edilə bilər.

## Ədəbiyyat

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010.
2. Uşaq Hüquqları Konvensiyası. Bakı,1998.
3. Humanist pedaqogika manifesti. 7 iyul 2011-ci il
4. Nəzərov A. Məktəbəqədər müəssisələrdə tərbiyə və təhsilin humansitləşdirilməsi və demokratikləşdirilməsi fənni üzrə proqram. Bakı, 2015.
5. Qaralov Z. Tərbiyə. I cild. Bakı: Pedaqogika. 2003.

**Г.Дж. Поладова**

## Основные черты гуманистического подхода в педагогическом процессе

### Резюме

Очевидно, что педагогический процесс очень сложен для младших школьников. Большое влияние на младших школьников оказывает воспитательный процесс в системе образования. Воспитание гуманизма в воспитательном процессе требует педагогического такта, пафоса, целеустремленности и больших педагогических способностей. Воспитатель должен быть вежливым, добрым и терпимым к маленьким ученикам. Учителя обращают внимание на улучшение некоторых способностей учащихся в гуманистическом воспитании, таких как желание работать, демократичность, вежливость, ответственность, толерантность, справедливость и т.д.

**G.J. Poladova**

## The main features of the humanistic approach in the pedagogical process

### Summary

Obviously, the pedagogical process is very difficult for younger students. The educational process in the education system has a great influence on younger students. The upbringing of humanism in the educational process requires pedagogical tact, pathos, determination and great pedagogical abilities. The teacher should be polite, kind and tolerant of young students. Teachers pay attention to the improvement of certain abilities of students in humanistic education, such as the desire to work, democracy, politeness, responsibility, tolerance, justice, etc.

**Redaksiyaya daxil olub:** 24.06.2022